# Qarabağda bərpa layihələri uğurla icra edilir



***Azərbaycan Prezidenti İlham Əliyev ölkədə iqtisadi islahatların sürətləndirilməsi ilə yanaşı, işğaldan azad olunan ərazilərimizə "Böyük qayıdış"ın ən yüksək səviyyədə təmin edilməsi üçün bu torpaqlarda bütün dünyanı heyrətə gətirən layihələr reallaşdırır. Dövlətimizin başçısının imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmandakı yeni bölgüyə 14 iqtisadi rayon sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da adlarının salınması, Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm addımlar atılması da düşməndən təmizlənən torpaqların tezliklə yeni görkəm alacağından xəbər verir.***

Artıq bir ildir ki, Qarabağ və Şərqi Zəngəzurda işğalçının dağıtdığı, xaraba qoyduğu yaşayış sahələrində genişmiqyaslı bərpa-quruculuq işləri gedir, bütün torpaqlarda həyat bərpa olunur. Hazırda bu ərazilərdə infrastrukturun yaradılması, vaxtilə mövcud olan magistralların yenidən qurulması və yeni yolların çəkilməsi mühüm önəm daşıyır. Çünki bu sahənin inkişafı şəhər və kəndlərin salınmasını, məskunlaşmanın gerçəkləşdirilməsini sürətləndirir.

Deputat seçildiyim Füzuli rayonunun nümunəsi bunu aydın göstərir. Ötən ilin oktyabr ayında Füzuli şəhərinin təməl daşının qoyulması mərasiminin keçirilməsi, rayonun nəqliyyat infrastrukturun formalaşdırılması istiqamətində layihələrin icrasının diqqət mərkəzində saxlanılması, Füzuli və Şuşa şəhərlərini birləşdirən yeni avtomobil yolunun inşası, istifadəyə verilən Zəfər yolu, Füzuli-Hadrut, Füzuli-Horadiz-Cəbrayıl-Ağbənd avtomobil magistralı, eyni zamanda, Horadizlə Zəngilanı birləşdirəcək dəmir yolu xəttinin tikintisi burada bərpa işlərinə xüsusi önəm verilməsinin bariz ifadəsidir.

Onu da vurğulayım ki, Füzuli şəhərinin Baş planına uyğun olaraq, ilkin yaşayış məhəlləsinin tikintisi nəzərdə tutulub. Eyni zamanda, Dövlətyarlı kəndində "Ağıllı kənd"in inşası istiqamətdə artıq işlərə başlanılıb.

Füzuli iqtisadi baxımdan böyük potensiala malikdir. İşğala qədər rayonda taxılçılıq, pambıqçılıq, üzümçülük yüksək sürətlə inkişaf edir, xüsusilə taxıl və üzüm istehsalında respublika üzrə diqqətçəkən göstəricilərin əldə olunması nəzərə çarpırdı.

Hazırda həmin torpaqların istifadəsinə dair araşdırmalar aparılır. Biz də bu rayonda daha çox taxılçılığın inkişafına xüsusi önəm verilməsini təklif edirik. Yaxın gələcəkdə taxıla tələbin dünya bazarında daha da artacağını nəzərə alsaq, bu məsələnin prioritetliyi daha çox diqqət çəkər. Beləliklə, bu amilin diqqət mərkəzində saxlanılması ilə yerli istehsalın artırılmasında Füzuli rayonunu xüsusi paya sahib ola bilər.

Yeri gəlmişkən, burada məskunlaşma ilə bağlı da bəzi fikirlərimi çatdırmaq istərdim. Belə ki, Füzulidə ilkin məskunlaşmanın Dövlətyarlı kəndində olacağı gözlənilir. Çünki orada "Ağıllı kənd" layihəsi uğurla həyata keçirilir. Rayonun digər ərazilərində də tikinti, abadlıq-quruculuq tədbirlərinin sürətlə həyata keçirilməsi yaxın gələcəkdə Füzulidə bütünlüklə məskunlaşmaya başlanılacağını deməyə əsas verir.

İşğaldan azad edilən rayonların bərpasından danışarkən, bir məqamı da qeyd etmək istərdim. Bildirim ki, bu il düşməndən təmizlənən ərazilərimizdə sahibkarlığın inkişafı üçün yeni imkanlar yaranacaq, həm yerli, həm də xarici investisiyaların cəlb edilməsi sürətlənəcək. Şübhəsiz ki, bu məsələ bütövlükdə işğaldan azad olunan ərazilərdə iqtisadiyyatın formalaşması və Azərbaycan iqtisadiyyatına inteqrasiyası baxımından hazırlanan xüsusi konsepsiyada da öz ifadəsini tapacaq. Həmin konsepsiyada yerli və xarici biznes üçün güzəştlərin, o cümlədən, təşviqedici vergi güzəştlərinin tətbiq edilməsi nəzərdə tutulur.

Artıq işğaldan azad olunmuş ərazilərimizdə sənaye parklarının yaradılması istiqamətində işlər intensiv şəkildə reallaşır. Bu da sahibkarlar üçün yeni investisiya imkanları və dövlət tərəfindən birmənalı şəkildə güzəştlərin tətbiq edilməsi anlamına gəlir. Bu istiqamətdə fəaliyyətlər getdikcə gücləndirilir.

Xatırladım ki, Vətən müharibəsində əldə edilən parlaq zəfərdən sonra işğaldan azad olunan ərazilərdə bərpa işlərinə başlayarkən, yerli sahibkarların burada reallaşdırılacaq layihələrə cəlbi məsələsi prioritet istiqamət kimi qarşıya qoyuldu. Düşməndən təmizlənən torpaqların illik, təxminən, 5 milyard manata yaxın dəyər yaratmaq potensialı olduğunu nəzərə alsaq, burada iş adamlarına nə qədər böyük ehtiyac duyulduğu aydın təsəvvür edilər. Əslində isə vurğuladığım həmin məbləğ Azərbaycan iqtisadiyyatının, təxminən, 10 faizinə yaxın bir göstəricidir. Bu, onu göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda böyük iqtisadi potensial var və həmin imkanların reallaşması isə sahibkarların bu ərazilərdə iqtisadiyyatın qurulmasında birbaşa iştirakından asılıdır.

Ona görə də bütövlükdə ölkədə həyata keçirilən sahibkarlığın inkişafı ilə bağlı siyasət, o cümlədən, yeni vergi güzəştlərinin tətbiq edilməsi, özəl maliyyə resurslarından çıxış imkanlarının artırılması, işğaldan azad olunan ərazilərimizdə bu prosesin daha intensiv şəkildə həyata keçirilməsi 2022-ci ildə özəl sektorun daha da tərəqqisi üçün yeni imkanlar yaradacaq.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 11 yanvar.- S.2.